# BİR BƏXTİN YAZISI

İnsanlıq tarixi elə hardasa, müharibələr tarixidir. «Mənim», «sənin» davasının başlaması iddiaların savaşı deməkdir. Sovet imperiyası - on beş başlı əjdaha mədəsinə yığdığı kütləni həzm edə bilmirdi. O, öz daxilindən ağrı hissi keçirirdi və bu ağrıdan xilas olmağın yolunu, əslində, tapa bilmirdi. Mədəsində olan din, dil, mədəniyyət, mənəviyyat baxımından fərqli xalqlar əriyib bir-birinə qarışmırdı. Şübzəsiz, bu qarışmamağın mahiyyəti onun üçün baş ağrısına çevrilmişdi. Özü də on beş başın hamısı ağrıyırdı. Başları idarə edən baş - üstün baş nə qədər ağrıdan xilas olmaq istəsə də başlardan heç birinin bədəndən ayrılmağını istəmirdi. Ayrı-ayrı başların fərqli düşüncələri, fərqli mübarizə yolları vardı.

Pribaltika tərəf Sovet imperiyasından Avropasayağı təfəkkürlə daha sivil qaydada ayrılma cəhdləri göstərdi. Və demək olar ki, istəyinə nail oldu. Ancaq Gürcüstan, Qazaxıstan, Azərbaycan... Pribaltika yolu ilə gedə bilmədi... və yeridir ki, burada qeyd edək; nəhəng əjdaha bu başlardan heç xilas olmaq da istəmirdi. Qarşılıqlı baş ağrısı artıq dövrün böyük ağrısına çevrilmişdi.

Azərbaycan mənəvi mühitindəki gərginlik, əslində, siyasətdəki gərginliyin davamı idi. Xalq instinktiv olaraq azadlıq istəyində idi. Çünki Sovet imperiyasının hələ əsri tamamlamağa gücü çatmayan tarixi, həm də xalqlara azadlıq verə bilməməyin birbaşa günahkarı idi. Və bu günahı xalq ona bağışlamırdı.

Bu qarşılıqlı ittiham tərəflərin toqquşmasına birbaşa şərait yaratmışdı.

Azərbaycan ədəbiyyatı Azərbaycan yazıçılarının timsalında mənzərəni müşahidə edirdi. Əgər kimsə deyirsə ki, Azərbaycan yazıçısı həmin qarşıdurma məqamında kənarda idi, o, köklü surətdə səhv edir. Çünki yazıçıların, görkəmli ədəbiyyat xadimlərinin çox böyük əksəriyyəti həmin dövrdə nəinki meydanda idi, hətta meydanın tribunasında idi. Aydın Məmmədov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Yusif və Vaqif Səmədoğullar, S.Rüstəmxanlı, ... digərləri xalq hərəkatını istiqamətləndirmək yönümündə böyük tribunadan ardıcıl olaraq çıxış edir, kütlənin doğru-dürüst istiqamətdə idarə olunmasına çalışırdılar. Və bu zaman Anar Azərbaycan xalqının idealı olaraq mübarizənin daha ağılla, daha məntiqlə aparılması üçün düşüncələrini böyük insan axını qarşısında aydın, başa düşülən bir tərzdə ifadə edirdi. Bütün bunlar tarixin yaşanan anları idi. Və bu yaşanan anlar onlarca digər qələm sahiblərinin gözü qarşısında cərəyan edirdi.

Şairlər, yazıçılar, qələm sahibləri insan axınından kənarda deyildi. Onlar kütlənin içində olaraq kütlənin əhvalını yaşayırdılar. Eyni zamanda həm də kütlənin keçirdiyi həyəcanları, yaşadığı hissləri müşahidə edirdlər. Onların arasında o vaxt kifayət qədər gənc olan, xalqının azadlığını, müstəqilliyini istəyən və bu yolda qələmi ilə mübarizə aparmaqdan çəkinməyən bir nasir-tənqidçi də vardı. O, Şəfəq Nasir idi.

Bu gün Şəfəq Nasirin o dövrdə, o dövrün psixoloji mühitini əks etdirən yazılarını oxuyanda onun nə qədər Xalq Azadlıq Hərəkatına bağlı olduğunu görməmək mümkün deyil. Şəfəq Nasir hadisələrin ilk günündən zamanın içində idi. Ən azı həmin hadisələri görməyi və yazmağı özünün mənəvi borcu bilirdi. Çünki 88 ilin hadisələri başlayanacan o, artıq ədəbi tənqiddə görünmüşdü. İstər ədəbi mühiti, istərsə də bütövlükdə ictimai mühiti saf-çürük etmək, ağı qaradan seçə bilmək mərtəbəsinə yüksəlmişdi. Çünki 88-ci ildə onun ilk nəsr kitabı çap olunmuşdu. Ədəbi dərgilərdə, dövrü mətbuatda bir tənqidçi kimi qələmini kifayət qədər sınamışdı.

Təbiidir ki, belə bir müəllif həmin hadisələrin axarını nəzərindən kənarda qoya bilməzdi. O, sanki ruhuna, varlığına yığılmış olan hissi, həyəcanı Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini qavradığı kimi yazıya gətirməyə mənəvi cəhətdən hazır idi. Və belə bir zaman gəldi ki, o, bütün gücü ilə xalqının tərəfində olduğunu və xalqının cəbhəsində dayanaraq xalqının azadlığını vermək istəməyənlərə qarşı qələmi ilə savaşa başladı. Əgər belə demək mümkünsə, 20 Yanvar hadisələri onun yaradıcılığının dönüş mərhələsi olaraq özünü göstərdi. Və Şəfəq Nasir bir-birinin ardınca 20 Yanvar epoxasını sənədli hekayələrlə, publisistik nəsr nümunələri ilə əbədiləşdirdi.

Şəfəq Nasir həmin silsilədən olan əsərlərini «Yaddaş məhkəməsi» adlandırır. Şübhəsiz, bu, elə yaddaşın mühakiməsidir. Yəni sən kimsən, səni nə üçün əzmək, sənin iradəni nə üçün qırmaq istəyirlər? Suallarına o, həmin silsilədən olan əsərlərilə cavab vermək istəyir. Bu silsilədən olan əsərlər sırasında «Bir şahidim şəhid getdi» əsəri xüsusi yer tutur.

«Bir şahidim şəhid getdi» əsərini «Düşüncələr hekayəsi» də adlandırmaq olar. Burada əsas qəhrəmanla yanaşı, onun ömür-gün yoldaşı və üçüncü olaraq müəllifin özü də iştirak edir. Beləliklə, bu hekayətin - yuxarıda dediyimiz kimi «Düşüncələr hekayəsinin» üç əsas qəhrəmanı var: Muxtarov Yunis Həşim oğlu, onun həyat yoldaşı Tahirə xanım və nəhayət, müəllifin özü - Şəfəq Nasir.

Müəllifin özü ona görə əsərin baş qəhrəmanı səviyyəsinə yüksəlir ki, o, mili təəssübkeşlik hissilə hadisələrin içərisinə daxil olur. Və hadisələrin içərisində olduğu üçün kimə güllə dəyibsə, həmin gülləni öz bədənində hiss edir. Bunu biz demirik, həmin hekayədəki müəllif ağrısı deyir. Müəllif ağrısının mahiyyəti isə o deməkdir ki, demək, müəllif xalqın içərisində olaraq ruhunda, varlığında millətin yara yerlərini özünə qəbul edir.

Müəllif hekayəni düşüncələr üzərində qurduğu üçün hadisələrin mahiyyətinə sanki sonradan başlayır. Yazacağı hekayətin sonluğundan gəlir mətləbə: «Hər gün sənin işlədiyin redaksiyaya keçəndə qayğısız, deyən-gülən vaxtlarımızda olduğu kimi üzünə, gözlərinə dik baxa bilmirəm. Əslində baxışlarım zahirən yayınır, amma bütün diqqətim, zəndim sənin donuq baxışlarında, acı, əzablı görkəmində, kökündən ağaran saçlarında, bütünlüklə uyuduğun, səni alıb aparan fikir-xəyalının izində ilişib qalır. Deməyə söz tapmıram. Başqalarıyla etdiyim ümumi söhbətlərlə səni üz tutduğun hansı dünyanınsa cəngindən alıb qoparmaq istəyirəm. Nə illah edirəmsə...» Müəllifin təhkiyyəsində tarixi bir hadisənin bir insanın taleyindən keçən yolu sonluğundan başlayaraq təsvir olunur. Təqribən belə anlaşılır ki, müəllif özünə doğma olan bir insanın, hətta onunla eyni mühitdə çalışıb işləyən bir qadının 20 Yanvar hadisələrindən aldığı yaradan danışacaq. Bu yaranın göynərtisi, ağrısı müəllifi ona görə səfərbər edir ki, həmin yaranın sahibi ilə birgə onun özü də bu ağrının daşıyıcısıdır.

Əsərin qəhrəmanı Yunis müəllifin təsvirindən daha çox düşüncələrindən gələn hissin və duyğunun təsirilə anlaşılır ki, o, doğma şəhərini sevən bir insandır. Onun üçün vətənin hansı diyarından olmağı fərq etməz. Ayrı-ayrı məqamlardakı müəllif istinadlarından belə başa düşülür ki, o, hansısa bir rayondan gəlib, paytaxtın sakini olub, kirayələrdə yaşayıb, çətinliklə öz dünyasını yaradıb. Tahirə adlı bir qızla evlənib və onların Nərminə və Ceyhunə adında iki qızı olub. Əslində, Yunis mənəvi bütövlüyü ilə şəhərini qorumağa gedərkən həm də öz ailəsini qorumağı düşünürdü. Yəni o, mənəvi mühitindəki böyüklüyü ilə ailə dünyasının və demək, vətən dünyasının keşiyində idi.

Müəllifin informasiya vermək, oxucuya hadisəni qavramaq üçün faktları sadalamaq imkanı da olur və bu faktlar düşüncələr hekayəsinə ağırlıq gətirmir: «O gecənin - 1990-cı il 19-dan 20-nə keçən gecənin dəhşətlərinin çox şahidlərini dinləmişəm, çox faciələr, çox ağrılar, əzablar eşidib-bilmişdim. Çünki o vaxtlar üç-üç, beş-beş kimi görürdünsə, hamının söhbəti qanı tökülən, əzilən, xıncımlanan xalqımızın faciəsindən gələn söz-söhbət idi. O günlər Tahirənin həyat yoldaşından eşitdikləri məni daxildən özgə cür silkələmişdi. Odu ki, Yunisin özünü eşitməyə məndə dözülməz bir aclıq var idi. Amma heç cürə bu aclığın nəfsini kəsməyə - onu eşitməyə gedə bilmirdim. Çünki ona yaxın düşmək qorxuluydu. Təzədən ona əzab vermək idi, insanları onun gözü qabağında əzib-xıncımlamaq idi, bir sözlə, Yunisi dindirmək onu göz-görəsi öldürmək idi». Burada əsərin qəhrəmanı mənəvi cəhətdən kimliyi qədərində görünür. Demək, Yunis müəllifin təsəvvür etdiyi mühitin ən qaynar yerində olub. Gördüyü hadisələrin içində güllələnib, başı əzilib, ayaqlarının üstündən tank keçib. Baxmayaraq ki, bu, başqalarının başına gəlib. O, özü cismən hələ sağdır. Amma bütün varlığı ilə həmin hadisələrin dəhşətini öz canında yaşayır. Və Şəfəq Nasir çox doğru bir qənaətə gəlir: «Sən demə, o gecə Yunis özü də şəhid olmuşdu. O biri şəhidlərdən yeganə ayrılığı buydu ki, onlar bir anın, bir dəqiqənin, uzağı üç-beş günün içində öldülər. Amma bu şəhid, Yunis ölümün cəngində 13 ay 28 gün çabaladı. Ölüm bu oğula yaman əzab verdi. Ölüm onun ürəyini, ciyərini tikə-tikə elədi, qanını parça-parça doğradı, beynini misqal-misqal qurutdu. Bütün varlığını talan elədi, ev-eşiyi, od-ocağı talan olub pərən-pərən düşmüş insanların bu dərdə dözməyib partladıqları kimi kəsdi ömrünü ölüm. Ayağından, əlindən - bütün əzalarına bənzəməyən o qaranın özü kimi bir qara dünyaya apardı o oğulu». Çox qəribədir ki, müəllif əsər boyu ən müxtəlif adlar, hətta olmayan adlar altında obrazlar yaradır. Və bu obrazlarla kifayətlənmir, sanki hiss edir ki, mənzərə tamamlanmır. Ona görə də bu obrazların sırasına daha bir obraz gətirir - ölüm obrazı: «Sən nə qarasan, nə acısan, nə yamansan, ölüm?» Əslinə qalsa, bu ölüm obrazı ona kömək edir ki, yaddaşında olan, varlığını sarsıdan hadisəni təfərrüatı ilə qələmə alsın, başqa sözlə, sarsıntı şəhidinin yazısını sözə gətirə bilsin. Çünki bu yazı artıq onun varlığındadır. Necə ki, çoxlarını öz ağuşuna çəkib aparan ölüm onun ədəbi qəhrəmanının varlığında daha bir il yaşadı. Və elə bu bir ili həmin ölüm həm də müəllifin varlığında yaşayır.

Demək, müəllif ədəbi qəhrəmanını vaxtında tanıyıb. Onu bütün hisslərilə dərk edib, kimliyini varlığına yığıb. Ancaq hansı hissinsə təsirilə ona yaxınlaşa bilməyib. Bunu psixoloji vahimə, bunu dövrün insanların varlığına elektrik cərəyanı kimi ötürdüyü stress də hesab etmək olar. Və bunu, əslində, müəllif özü də etiraf edir: «Mənim bütün il boyu yaxın düşə bilmədiyim o şahid - Muxtarrov Yunis Həşim oğlu şəhid getdi. O gecə üzünə, sümüyünə, iliyinə çökmüş çaları tapılmayan qara rəng onu apardı. Bəlkə də o rəng xəbər bilmədiyimiz o dünyanın rəngi imiş. O rəng ayaq üstə bilaixtiyar gəzən həmən o igidin çöhrəsinə qonubmuş ki, özünü işıqlı dünyanın adamlarına tanıtsın, göstərsin...» Biz əsər boyu müəllifin hisslərini də hiss edirik, duyuruq... və bu hisslərdəki təəssüfü də duyuruq. Çünki o, ədəbi qəhrəmanının sağlığında onunla görüşə bilməyib. Çünki onun ədəbi qəhrəmanı bir illik sarsıntı içərisində diri zarıncı qalıb. Əslində, o, elə həmin hadisələrin içində ölmüşdü. Müəllif isə cismən sağ olduğu məqamda onu nə qədər görmək istəsə də, ona doğru nə qədər getsə də, gedir, gedir... Və ona yetə bilmir: «Beləcə, o şahidi eşitmək murazım gözümdə qaldı». Şəfəq Nasir zəncirvari şəkildə hadisələri düşüncəsində sanki təzədən qurur, özü də qanunauyğun şəkildə düzür. Və birdən-birə çıxış nöqtəsi də tapır. Baxmayaraq ki, bir il zarıncı bir həyat yaşayan ədəbi qəhrəmanını görə bilməyib, amma onun faciəsinin davamı olaraq yaşayan qadını ilə görüşmək imkanı var və sanki buna sevinir: «Nə yaxşı ki, şahid ərin şahid qadını varmış. Günlərlə o qadının - Tahirənin böyür-başında hərləndim, fikir-xəyalının sapından sallana qalan gözlərinə baxdım... Tahirə bükülübaçıldı, dolub-boşaldı, Yunisi təzədən evəşiyinə "gətirdi", onu təzədən eşitdi, dilləndirdi, danışdırdı...» Hadisələrin gərginlik məqamları müəllifin düşüncə axarından özünün gərginlik dərəcəsində keçir. Müəllif düşüncəsilə həmin zamanı təzədən yaşayır. Həmin o müdhiş gecənin iztirablarını ədəbi qəhərəmanının xanımı olan Tahirənin düşüncələri ilə özünün düşüncələrini qovuşdurur. Əslində, onların ikisi də şahiddir. Bu yerdə müəllif ədəbi qəhrəmanının ölümünün mahiyyətini başqa bir obrazın timsalında çox məharətlə açır: «Evə keçdim, otaqları gəzdim, balkona atıldım, yenə evə, yenə otaqlara, bir də balkona. Allah, küçəni gördüm, ala-toran idi, ağacları, evləri, küçədəki dayanacağı, tərəvəz köşkünü seçirdim. Acgöz bir nəzərlə hər yanı gözlərimlə "yeyirdim". Onda gördüm ki, aşağı tərəfdən bizim binamıza sarı başı, yaxası açıq bir gəlin səntirləyə-səntirləyə, havalı kimi gəlir. Narahat, həyəcanlı, matəmli idi o gəlin. Bəlkə, bütün gecəni dalda-bucaqlarda, küçələrdə əzizini səsləmiş, axtarmışdı. Canımdan təzədən üşütmə keçdi». Bələliklə, müəllif belə bir vəziyyəti çox mükəmməl şəkildə təsvir etmiş olur. Əslində, həmin dövrün hadisələrinin bütün şahidləri şəhiddir. Lap onların arasında kimsə hadisələrdən sonra əlli il, altmış il, yetmiş il yaşasa belə... Müəllifin təbirilə desək, həmin dövrün şahidi olaraq yaşayan şəhidlər həmin gecənin qurbanı olan şəhidlərlə birgə yaşayır, əgər buna yaşayır demək mümkünsə?!.

Şəfəq Nasirin bu hekayəsi də dərsliklərə salınmalı, yeni nəsillərə öyrədilməli, hətta xarici dillərə tərcümə olunmalı, Azərbaycan xalqının tarixi taleyində yaşanmış bir hadisə olaraq heç vaxt unudulmamalıdır.

Müəllif bu hekayəsi ilə şahidliyin şəhidliyi haqqında əsaslı bir ədəbi sənəd yazıb.

*2020*